# Tofiq Heydərov: “Qastrol səfərləri bizə stimul verir”



■ Xəyalə Rəis
teatrşünas

Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının truppası mayın 4-5-də Bakıda qastrol səfərində olacaq. Lənkəranlı aktyorlar Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində italyan dramaturqu Eduardo de Filipponun “Ruhlar” və iranlı yazar Bəhram Beyzayinin “İlan Sultan” tamaşalarını nümayiş etdirəcəklər.

Qeyd edək ki, hər iki tamaşa Şəkidə və İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş beynəlxalq teatr festivallarında mükafatlara layiq görülüb.

Paytaxta qonaq gələn teatrın direktoru Tofiq Heydərovla söhbət etdik. Sözə teatrın yaradıcı kollektivinə uğurlar arzulamaqla başladıq.

**- Tofiq müəllim, sizi paytaxtımızda görməkdən məmnunuq. İlk olaraq istərdik ki, bizə qastrol səfərinin məqsədindən danışasınız. Paytaxta gəlişiniz hansı zərurətdən yarandı?**





- Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilən “Azərbaycan Teatrı 2009-2019-cu il dövlət proqramı”na uyğun olaraq Lənkəran Teatrı da öz öhdəsinə düşən vəzifələri yerinə yetirməyə çalışır. Bunun üçün biz 5 illik inkişaf planı hazırlamışıq. Bu plan çərçivəsində teatrın inkişafı ilə əlaqədar mütəmadi olaraq müəyyən işlərin görülməsi nəzərdə tutulub. Buraya teatrın maddi texniki bazasının inkişafı, yaradıcı potensialın nümayiş olunması, truppamızın qastrol səfərləri, festivallarda iştirak məsələləri ortaya qoyulub. Planımıza daxil olan əsas məsələlərdən biri də mütəmadi olaraq paytaxt tamaşaçıları qarşısında çıxış etməkdir. Biz paytaxtımıza budəfəki səfərimizdə Eduardo de Filipponun “Ruhlar” və iranlı yazar Bəhram Beyzayinin “İlan Sultan” əsərləri ilə çıxış edəcəyik. İtalyan neorealizminin banisi Eduardo de Filipponun eyniadlı əsəri əsasında hazırlanan “Ruhlar” tamaşasının quruluşçu rejissoru Tural Mustafayev, quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Telman Qəniyevdir. Tamaşa insanın həyatda yerini tapmaq uğrunda apardığı mübarizəni əks etdirir. Əsərin süjet xətti çox sadədir. Böyük, cazibədar bir malikanənin sahibi ruhlar barədə dolaşan şayiələrə görə, bu imarəti heç cür icarəyə verə bilmir. Nəhayət o, bütün bu söz-söhbətlərə son qoymaqdan ötrü evi təmənnasız olaraq, yeni evlənmiş cütlüyə kirayəyə verməyi qərara alır. Ruhların dolaşdığı ev kimi məşhur olan bu sarayda həyat yoldaşı Mariya ilə birlikdə yaşamaqla əsərin baş qəhrəmanı Paskuala şəhər sakinlərini inandırmalıdır ki, evdə heç bir ruh yoxdur. Paskuala Alfredo ilə bağladığı “saziş” barədə arvadına xəbər vermir.

Səhnə əsərində əsas rolları əməkdar artist Adil Zeynalov, aktyorlar Əbülfəz Axundov, Niftulla Əsgərov, Tərlan Abdullayev, Aynur Əhmədova, Gülər Kərimova, Qızılgül Quliyeva, Miraslan Ağayev və başqaları ifa edirlər.

İranlı yazar Bəhram Beyzayinin “İlan sultan” əsəri İrandan dəvət olunan rejissor Xeyrullah Təğiyanipur hazırlayıb. İki gəncin saf məhəbbətindən, keşməkeşli hadisələrdən sonra vüsala yetmələrindən bəhs edən bu səhnə əsərində rolları əməkdar artist Sücəddin Mirzəyev, aktyorlar Səyyad Əliyev, Aynur Əhmədova, Miraslan Ağayev, Əlibala Əsgərov, Gülər Kərimova, Şəbnəm Hüseynova, Qızılgül Quliyeva, Emin Feyzullayev, Emil Rzayev və Nizami Qurbanov oynayırlar.

**- Qastrollar teatra nə verir?**

- Qastrolların önəmli cəhətlərindən biri də odur ki, başqa auditoriya qarşısına çıxırsan. Paytaxtda - mərkəzi teatrda fəaliyyət göstərən aktyorlar, rejissorlar, tənqidçilər bizim tamaşalarımıza dəvət olunublar. Bu baxımdan teatrın potensialını bir daha göstərmək üçün bizimə əlverişli şərait yaranıb. Biz iki günlük səfərimizi özümüzə hesabat xarakterli qastrol səfəri kimi nəzərdə tuturuq. Bu qastrolda son iki il ərzində hazırladığımız tamaşaları nümayiş etdirəcəyik. Demək istəyirik ki, heç də digər teatrlardan geridə qalmırıq. İşimizə məsuliyyətlə yanaşırıq. Geniş auditoriyaya, teatr sənətini dərindən bilən insanların qarşında çıxış etməyin böyük məsuliyyət olduğunu yaxşı dərk edirik. Ümumiyyətlə qastrol səfərləri bizə, teatrda çalışan yaradıcı heyətə stimul verir. Biz mütəmadi olaraq teatrımıza həm ölkə xaricindən, həmdə yerli rejissorlar dəvət etmişik. Ayrı-ayrı rejissorlarla işləyəndə aktyorlar da hərəsindən nəsə öyrənir, özlərini fomalaşdırırlar. Biz də yaradıcı kollektivimizin nələrə qadir olduğunu göstərməyə çalışırıq.

**-Tofiq müəllim, eşitdik ki, Lənkəran Teatrına İran İslam Teatrından ustad dərsləri keçmək üçün teatr mütəxəssisləri dəvət olunub.**

- Elədir, teatra İran İslam Respublikasının Tehran şəhərindən Xeyrullah Təğiyanipur, Əli Süleymani, Məhəmməd Ətayi və Cavad Nurini dəvət etmişdik. Onlar Lənkəran Dövlət Dram Teatrının gənc aktyorları üçün ustad təlimləri keçdilər. Üç gün ərzində iranlı sənətçilər Lənkəran teatrının gənc aktyorlarına səhnə hərəkətlərinin bir sıra xüsusiyyətlərini əyani olaraq öyrətdilər. Bizim qarşılıqlı münasibətlərimiz yaranıb. Qeyd edim ki, İranın teatr mütəxəssisləri və sənət kollektivləri ilə Lənkəran teatrının əlaqələri bundan sonra da davam etdiriləcək və tamaşalarımız İranın şəhərlərində nümayiş olunacaq. Ustad dərslərinin keçirilməsi yaradıcı gənclərin daha da inkişaf etdirilməsinə kömək edir. Bundan sonrakı fəaliyyətlərində öyrəndikləri biliklər onlara lazım olacaq.

**- Bu yaxınlarda Lənkəran Teatrında “Bizim ev” tamaşasının premyerası keçirilib. Bu tamaşanı necə qiymətləndirirsiniz?**

- Teatrımızın repertuar proqramına uyğun olaraq Əli Əmirlinin “Köhnə ev” tamaşasını hazırladıq. Bu tamaşa çox uğurlu alındı. Lənkəran tamaşaçıları, ziyalılar, ictimaiyyət tərəfindən müsbət qarşılandı. Premyeradan sonra tamaşanı bir dəfə də oynamışıq. Tamaşa bu gün də aqktual olan problemləri əks etdirir. Belə ki, əsərdə hadisələr ötən əsrin sonlarında Azərbaycan cəmiyyətində baş verən ictimai-siyasi-iqtisadi və mənəvi dəyişikliklər fonunda bir ailə daxilində cərəyan edir. Satılan köhnə ev keçmişin, yaşamaq qabiliyyətini itirib tarixə qovuşmuş formasiyanın rəmzidir. Köhnə ev həm də bu evin sakinlərinin doğma yuvası, həzin xatirələri, gəncliyidir. Onlar hələ adını belə bilmədikləri yeni quruluşu, həmin quruluşun gətirdiyi yeni insan münasibətlərini, sərt və amansız iqtisadi reallığı anlamaqda çətinlik çəkirlər, elə buna görə də gülüş, istehza, bəzən də kinayə hədəfinə çevrilirlər. Çoxdan yaşanmış həyatın xiffətini edən çaşqın insanların var olmaq uğrunda çabaları tamaşaçını güldürməklə bərabər, həm də kədərləndirir. Teatrın yaradıcı kollektivi əsərin bu ikili ovqatını yaxşı duyaraq, onun maraqlı səhnə həllini tamaşaçılara uğurla çatdıra biliblər.

Tamaşanın quruluşçu rejissoru əməkdar artist Adil Zeynalov, rəssamı Məzaim Qurbanov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Səhnə əsərində əsas rollarda xalq artisti Qabil Quliyev, aktyorlar Şahrud Mehdiyeva, Təranə Fərəcova, Günel Abbaszadə, Emil Rzayev və Aysel Babazadə ifa ediblər.

**- Teatrın repertuar planın necə təyin edirsiniz?**

- Repertuar planını ilin əvvəlində planlaşdırırıq. Belə ki, bədii şuranın üzvləri yığılır, onların fikirlərini soruşuruq, müzakirələr edirik. Nəticədə hər kəsin razılaşdığı əsərləri səhnələşdiririk. Əsas odur ki, əsər müasir dövrün tələblərinə cavab versin, bizim dövrə uyğun gəlsin.

**- Bu gün Lənkəran Teatrı tamaşaçı problemi yaşayırmı?**

- Belə gündə tamaşaçı probleminə görə gileylənmək istəmirəm. Bir məsəl var deyirlər ki, “başqasında günah axtarma, günahı ilk olaraq özündə axtar”. Ona görə də biz düşünürük: tamaşaçı üçün nə etməliyik ki, tamaşaçı teatra gəlsin. Biz də müəyyən işlər görürük ki, tamaşaçı öz ayağı ilə kassaya yaxınlaşıb bilet alsın. Lənkəranda tamaşaçı problemi yoxdur. Lənkəran ziyalıları, şagirdləri, ictimai xadimləri bütün tamaşalarımızı izləyirlər. Məktəblərlə də əlaqələrimiz var. Uşaq tamaşalarını hazırlayarkən onların da fikirlərini öyrənirik. Mütəmadi şəkildə məktəblərə də gedib çıxış edirik. Ümumiyyətlə, tamaşaçını yetişdirmə prosesi elə ilk olaraq aşağı yaşlardan - şagird olarkən başlayır. Biz də uşaqların ruhlarına uyğun müxtəlif tamaşalar hazırlayırıq. Çalışırıq ki, onlar bizim potensial tamaşaçılarımız olsunlar, davamlı olaraq teatra üz tutsunlar.

**- Bu günün tamaşaçısı gülmək istəyir. Məhz bu səbəbdəndir ki, çox zaman yüngül janrlı səhnəciklərə müraciət edilir. Belə olan halda Lənkəran Teatrı kütlənin arxasınca gedir, yoxsa kütlə onların arxasınca gəlir?**

- İnsan yeri gələndə gülür, yeri gələndə ağlayır. Biz də təbii olaraq həm komediya, həm də dram janrlarına müraciət edirik. Misal üçün İlyas Əfəndiyevin “Qəribə oğlan” tamaşasınna azca satira əlavə etmişik ki, tamaşaçı hər zaman onu izlədikdə gülür. Elə bu yaxınlarda premyerasını etdiyimiz “Köhnə ev” tamaşasında da müəyyən komedik səhnəciklər var. Ümumiyyətlə, çalışırıq ki, tamaşaçılarımızın əhval ruhiyyəsini dəyişək. Onlar teatra gələndə düşdükləri sosial durumu unutsunlar. “Cəhənnəm sakinləri” tamaşamız dram əsəridir. Nə qədər ağır yüklü olsa da bu tamaşa da çox sevilir. Biz tamaşaların arasında ayrı seçkilik etmirik.